*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 87-93* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.2.87*

# Portuqaliya modernizminin nəsr xəritəsi: Fernando Pessoa, Mario Sa Karneyru və Almada Neqreyruş

**Gülşən Şabanova**
Bakı Avrasiya Universiteti
E-mail: sabanovagulsen41@gmail.com

**Annotasiya.** Məqalədə Portuqaliya modernizminin nəzəri-estetik əsasları və Fernando Pessoa, Sa Karneyru və Xose Almada Neqreyruş yaradıcılığı araşdırılır. Modernizmin simvolizmdən ayrılaraq sensassionizm, futurizm və avanqard təsirlərlə necə inkişaf etdiyi izah olunur. Pessoa heteronim yazı tərzi ilə modern insanın daxili mənliyinin parçalanmış hisslərini ifadə etmiş, Sa Karneyru dekadentizm və şəxsiyyət böhranını nəsrə gətirmiş, Almada Neqreyruş isə absurd, satira və vizual təsvir zənginliyi ilə modernizmi inkişaf etdirmişdir. Bu üç yazarın yaradıcılığı Portuqaliya modernizmini milli ədəbiyyatın təsir dairəsindən çıxarıb Avropa modernizmi ilə dialoq səviyyəsinə yüksəltmişdir.
**Açar sözlər:** Portuqaliya modernizmi, Fernando Pessoa, Mario Sa Karneyru, Xose Almada Neqreyruş, sensassionizm, XX əsr Avropa ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 11.11.2025; qəbul edilib – 25.11.2025

# The prose map of Portuguese modernism: the dialogue of Pessoa, Sá-Carneiro, and Almada Negreiros

**Gulshan Shabanova**
Baku Eurasian University
E-mail: sabanovagulsen41@gmail.com

**Abstract.** This article examines the theoretical and aesthetic foundations of Portuguese modernism and the works of Fernando Pessoa, Sá Carneiro, and José Almada Negreiros. It explains how modernism developed from symbolism to sensationalism, futurism, and avant-garde influences. Pessoa expressed the fragmented parts of the modern person's inner self with his heteronymous writing style, Sá Carneiro brought decadence and identity crisis to prose, and Almada Negreiros developed modernism with the richness of absurdity, satire, and visual imagery. This article shows that the work of these three writers took Portuguese modernism out of the sphere of influence of national literature and elevated it to the level of dialogue with European modernism.
**Keywords:** Portuguese modernism, Fernando Pessoa, Mario Sa Carneiro, Jose Almada Negreiros, sensationalism, 20th century European literature

**Article history:** received – 11.11.2025; accepted − 25.11.2025

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində Portuqaliya ədəbiyyatında modernizm meydana gəldi və ölkənin ədəbiyyatında dərin iz buraxdı. Ümumilikdə, Portuqaliya ədəbiyyatında modernizm iki nəslin 1914-1940-cı illər aralığında fəaliyyət göstərmiş sənətkarların yaradıcılığını əhatə edir. Birinci nəsil

modernistlər 1915-ci ildə nəşr olunan qısa müddətli “Orfeu” (“Orpheu”) ədəbi jurnalı ətrafında cəmləşmişdilər. Bu nəslin aparıcı simaları Fernando Pessoa, Mario Sa Karneyru və Xose de Almada Neqreyruş olmuşdur. Onlar əvvəlcə subyektiv təcrübələri ənənəvi şeir formalarında ifadə etsələr də, qısa müddət sonra köhnə üslubdan qopdular və Avropa avanqardının yeni cərəyanlarına uyğun cəsarətli mətnlər yazdılar [4, s.23]. Modernistlərin yenilikçi axtarışları ilk zamanlar cəmiyyətdə qalmaqal və anlaşılmazlıqla qarşılansa da, onların fərqlilikləri sonrakı nəsil yazarlar tərəfindən yüksək dəyərləndirildi. İkinci nəsil Portuqaliya modernistləri 1927–1940-cı illərdə çap olunmuş “Presença” jurnalının ətrafında birləşərək Orfeu nəsli yazarlarının təcrübələrinə sahiblənmiş, onlara ilk dəfə “modernistlər” deyə müraciət etmişdilər [4, s.24-25]. Beləliklə, Orfeu nəslinin modernizm adlı estetik inqilabı ədəbiyyat tarixində öz yerini bir daha təsdiq etmişdir.

**Əsas hissə / *Main Part***

1900-cü illərin əvvəlləri Portuqaliya cəmiyyəti və ədəbiyyatı üçün qarışıq bir dövr idi. 1910-cu ildə monarxiya devrildi və respublika quruldu. Bu illərdə milli kimlik axtarışları və ədəbiyyatda yenilənmə meyilləri gücləndi. Bu dövrdə əvvəlcə Portuqal İntibahı hərəkatı və başqa şairlər milli romantik nostalji ruhunu canlandırmağa çalışsalar da, tezliklə bunun yetərsizliyi ortaya çıxdı [12, “Portuguese literature”]. Belə bir şəraitdə, gecikmiş simvolizmin estetik prinsiplərindən faydalanan gənc yazarlar daha inqilabi modernist çevrilişə çalışdılar. Bu gənc nəsil içərisində ən uğurlu sima Fernando Pessoa idi. O, sağlığında geniş tanınmasa da, sonradan Avropa modernizminin ən dahi şairlərindən birinə çevrildi. Pessoa XX əsr ədəbiyyatında bənzəri olmayan heteronimlər sistemi ilə tanınırdı. O, uydurma adlar altında ayrı üslub, tərz və dünyagörüşünə malik “müəllif obrazları” yaratmışdı. Təsadüfi deyildir ki, Pessoa məhz buna görə portuqal modernizmində universal şəxsiyyət kimi tanınır [1, s.656].

Fernando Pessoa modernizmin nəzəri estetikasına əsaslansa da, ənənəvi simvolizmdən də tam uzaqlaşmırdı. Cənubi Afrikada təhsil alıb vətənə qayıdan Pessoa 1912-ci ildə çap etdirdiyi məqaləsində Portuqaliya ədəbiyyatının yenidən dirçəlişi üçün güclü və yenilikçi ədəbi şəxsiyyətə ehtiyac olduğunu bildirirdi. O, ədəbiyyatdakı durğunluğu azaltmağa və modernist fikrin aydın ifadə edilməsinə çalışırdı. Dövrün gənc modernistləri sənətdə aydın ifadə ilə dərin mənanı uzlaşdırmağı qarşılarına məqsəd qoymuşdular. Pessoa öz məqalələrində mürəkkəb, çoxşaxəli fikir yürütməyə əsaslanan yeni estetikaya nail olmağa çalışırdı [1, s.658]. Bu yeni estetika sonradan sensassionizm adını aldı və Pessoa ilə dostu Sa Karneyrunun birgə yaratdığı modernist təlimə çevrildi. Sensassionizmə görə, “hiss və duyğu yeganə həqiqətdir, sənətin vəzifəsi isə hissin dərk edilməsidir” [11, s.1-5]. Yəni modernizmin estetikası subyektin duyğu və düşüncələrini ön plana qoyaraq, bütün xırdalıqları ilə göstərməyə başladı.

Portuqaliyalı modernistlər öz axtarışlarında dövrün Avropa avanqard hərəkatlarından da bəhrələnmişdilər. Məsələn, futurizm onlara sənayeləşmə dövrünün sürət və dinamikasını tərənnüm etməyi, kubizm isə ədəbi dildə paralel təsvir planları, kollaj və çoxşaxəli olmağa şərait yaratdı [14, s.33]. “Orfeu” jurnalında Pessoa müxtəlif heteronimlərlə modern həyatın absurd yönlərini əks etdirən manifest və şeirləri çap etdirdi. Məsələn, onun heteronimi Álvaro de Camposun futurist ruhlu “Mənzil Şeiri” (“Ode Triunfal”) şeiri birbaşa maşınların gurultusunu və şəhər həyatının sürətini coşqun şəkildə təsvir edirdi. Digər heteronimi Alberto Caeiro ənənəvi təbiət şairi kimi çıxış edərək modern həyata tənqidi baxışı təsvir edirdi. Beləcə, Pessoa öz daxili dünyasındakı səsləri və modern həyatın səslərini sintez edərək yeni modern insanın portretini yaratdı. Onun 1935-ci ildə gənc yazar Adolfo Casais Monteiroya yazdığı məşhur məktubda ifadə etdiyi kimi, heteronimlər Pessoanın “daxilən çox şəxsiyyətli olması”na dayanırdı [12, s.10]. Bu konsepsiya modernizmin “mən”ini dağılıb yenidən yaradılmasının fəlsəfi əsasına söykənirdi.

Portuqaliya modernistlərinin ideoloji və estetik mübarizəsi təkcə ədəbiyyatın daxili məsələsi olmayıb, eyni zamanda köhnə zövqlə mübarizə formasını almışdı. 1915-ci ildə Almada Neqreyruşun

yazdığı məşhur "Manifesto Anti-Dantas" buna nümunədir. Bu manifest, dövrün köhnə zövqlərini tənqid edir, mühafizəkarlığa qarşı mübarizə aparırdı [9, s.5-6]. Neqreyruş və müasirləri bu vasitə ilə ictimaiyyətə açıq şəkildə deyirdilər ki, ədəbiyyat yenilənməli, ənənəvi formalizm və bayağılıqdan təmizlənməlidir. 1917-ci ildə Almada və dostları Lissabonda ilk futurist konfransı təşkil etdilər. Burada Almadanın astronavt kostyumunda səhnəyə çıxaraq futurizm haqqında mühazirə oxuması cəmiyyətin diqqətini cəlb edir. Eyni il onlar "Portugal Futurista" adlı avanqard jurnal hazırladılar və Neqreyruş orada gənc portuqaliyalı nəsillərə ünvanlanmış "Futurist Ultimatum" bəyanatını yaydı [9, s.5]. Bütün bu addımlar modernizmin Portuqaliyada təkcə ədəbi deyil, həm də geniş mədəni-sosial bir hərəkat kimi yaranmasına şərait yaratdı. Modernist yazarlar sözün həqiqi mənasında özlərindən əvvəlki nəsillə mədəni savaşa girdilər və nəticədə 1920-30-cu illərdə ölkənin ədəbi düşüncəsini köklü surətdə dəyişdirə bildilər.

Qeyd etmək lazımdır ki, Portuqaliya modernizmi bir tərəfdən Avropanın ümumi modernizm dalğasının tərkib hissəsi idi, digər tərəfdən isə milli özünəməxsusluqları ilə fərqlilik yaradırdı. Onun nəzəri təməlində sensassionizm, mənliyin çoxşaxəli təbiəti kimi ideyalar dururdu. Bu ideyalar sayəsində modernistlər ədəbiyyatı yeni məzmun və forma ilə zənginləşdirdilər. Modernist dalğanın üç başlıca nümayəndəsi Fernando Pessoa, Mario de Sa Karneyru və Xose Almada Neqreyruş olmuşdur.

**Fernando Pessoanın modernizmdə yeri**

Fernando Pessoa (1888-1935) əsasən şair kimi tanınsa da, onun nəsr sahəsindəki fəaliyyəti Portuqaliya modernizmi üçün böyük əhəmiyyət daşıyır. Pessoanın nəsr yaradıcılığının zirvəsi sayılan "Hüzursuzluğun Kitabı" (Livro do Desassossego) 1913-1935-ci illər ərzində yazılmış, tam şəkildə ilk dəfə 1982-də nəşr olunmuşdur. Bu kitab modernist nəsrin manifesti hesab olunur.

"İç dünyam bir labirentdir; onun içində dolanmaq məni həm qorxudur, həm də həyatda qalmağa məcbur edir" [9, s.118].

Bu əsər müəllifin Bernardo Soares adlı "yarı-heteronim"i adından təqdim olunan gündəlik qeydlər toplusudur. Əsərdə aydın süjet xətti yoxdur; əvəzində şəhər həyatından doğan tənhalıq, mənəvi boşluq və daxili narahatlıq poetik bir dillə təsvir edilir. Məhz bu fraqmentvari struktur vasitəsilə Pessoa modern insan şüurunun dağınıqlığını və həyatın mənasızlığını dərin fəlsəfi səviyyədə çatdırmağa çalışmışdır. Tədqiqatçılar qeyd edir ki, "Narahatlığın Kitabı" gündəlik qeydlərdən ibarət bir mətndə hətta tək bir parçada belə qeyri-müəyyənliyin izini sürmək mümkündür [4, s.69-70]. Pessoanın sənətdə "aydın ifadə edilmiş qeyri-müəyyənlik" idealına uyğundur. Müəllif düşünür ki, sənət naməlumu aydın şəkildə ifadə etməlidir, lakin onu tam izah edib sirdən məhrum etməməlidir. Əsər boyunca davam edən məhz bu "aydınlaşdırılmış qaranlıq" ifadəsidir. Bu yolla Pessoa oxucuda ekzistensial nigarançılıq hissi oyadır ki, bu modern epoxanın mənəvi böhranı təmsil edir. Pessoanın nəsrində diqqəti cəlb edən digər cəhət onun müxtəlif mənlikləri dialoq halında təqdim etməsidir. "Narahatlığın Kitab"da Bernardo Soares şəxsində müəllifə çox bənzəyən (yarı-heteronim) bir obrazın düşüncələri verilir. Bernardo Soares, gündəlikdəki qeydləri ilə Pessoanın öz yaşamından parçaları xatırladır, digər tərəfdən isə "mən"ini bir qədər kənardan, özgə adından müşahidə etmək imkanı yaradır:

"Həyatın kifayət qədər olan axmaqlığı arasında birdə maddi zövqlər üçün deyilən bu sözü də çox eşidirik: Qazancımız budur..Qazancımız mı? İnsan cəsədləri arasında hansı qazancdan bəhs etmək olar ki?" [10, s.204]

Bu incə ədəbi işin sayəsində Pessoa öz varlığını həm subyekt, həm obyekt kimi dərk edir. Modernist fəlsəfədə geniş yayılmış özünə yadlaşmanı canlı şəkildə nümayiş etdirir. Pessoa "Anarxist bankir" adlı məşhur hekayəsində də dialoq formasında motivləri işlənmişdir. Burada bankir paradoks şəkildə anarxist idealından danışır, lakin əslində kapitalist dünyagörüşünü əsaslandırır. Bu Pessoanın nəsrdə satirik üslubla fəlsəfi ideyaları necə qarşı-qarşıya qoyduğunu göstərir. Müəllif insan dünyagörüşünün ikiüzlülüyünü və rasionalizasiya mexanizmini ifşa edir, oxucunu tənqidi düşünməyə sövq edir.

Fernando Pessoanın nəsr üslubu ümumən intellektual dərinlik, lirik ton və şüur axını elementlərinin vəhdəti ilə səciyyələnir. Onun dili bəzən ensiklopedik dərəcədə zəngin, bəzən isə son dərəcə sadədir. O, bir abzasda fəlsəfi terminlərdən istifadə edirsə, növbəti parçada gündəlik həyatın adi detalları ilə baş-başa qalırıq. Bu cür üslub qarışıqlığı modernist nəsrə xas olan həyatla ədəbiyyatın sərhədlərinin silinməsi meylini əks etdirir. Pessoa reallığı subyektin prizmasından süzür. Mətnlərdə hadisələr yox, hadisələrin şüurda doğurduğu təəssüratlar əks olunur. Pessoanın qəhrəmanları həyatda aktiv fəaliyyət göstərməyən, daha çox düşüncələrində yaşayan fərdlərdir. Bu qəhrəmanlar üçün gerçək həyat mənasız və bayağı görünür, əsl həqiqət daxili aləmdə cərəyan edir. Bütün bu cəhətlərə görə Fernando Pessoa Portuqaliya modernist nəsrinin ən orijinal nümayəndəsi sayılır. Onun fraqmentləri, çoxsəsli və dərin fəlsəfi nəsri təkcə öz dövrü üçün deyil, sonrakı modernist və postmodernist nəsillər üçün də ilham mənbəyi olmuşdur.

**Mario de Sa Karneyru və mənlik böhranı**

Mario de Sa Karneyru (1890-1916) Portuqaliya modernizminin əsas nümayəndələrindəndir. O həm şeir, həm də nəsrlə yazmış, qısa ömrünə rəğmən qoyub getdiyi orijinal əsərlərlə yadda qalmışdır. Sa Karneyrunun yaradıcılığı barəsində deyilir ki, o, modernizm cərəyanının Parisin avanqard mühitindən gələn təsirləri daşıyan mərkəzi fiqurlarından idi [7, "Mario de Sa Carneiro: A literary engima of Lisbon"]. 1912-ci ildə Parisə köçən yazıçı burda futurizm, kubizm kimi hərəkatlarla tanış olmuş, Avropa ədəbiyyatının nümunələrini dərindən öyrənmişdir. Fernando Pessoa ilə yaxın dostluğu və məktublaşmaları nəticəsində formalaşan ortaq estetik dəyərlər, xüsusilə sensassionizm hər iki müəllifin əsərlərində öz əksini tapmışdır. Lakin Sa Karneyrunun üslubu özünəməxsus çalarlara malikdir: o, modern dünyaya dekadentist (tənəzzülə meyil edən) bir gözlə baxır və şəxsi mənlik böhranını ədəbiyyatının mərkəzinə qoyurdu.

Sa Karneyrunun ən məşhur nəsr əsəri 1914-cü ildə qələmə qaldığı "Lusyonun etirafı" romanıdır. Bu əsər portuqal ədəbiyyatında ilk psixoloji-modernist roman hesab olunur. Romanda Lusyo adlı obrazın dili ilə qeyri-adi bir "etiraf" verilir: O, öz rəfiqəsi və bir qadın arasında qəribə bir eşq üçbucağına düşdüyünü, sonra isə bu qadının əslində mövcud olmadığı, dostunun şizofrenik təxəyyülünün məhsulu olmağından danışır. Hekayənin sonunda məlum olur ki, Lusyonun dostu bir növ ikili kimlik daşıyır və sevdiyi qadın obrazı əslində dostunun digər yarısı imiş. Bu sürpriz sonluq romanı oxucu üçün sirli bir psixoloji drama çevirir. "Lusyonun etirafı" modernist nəsrdə reallıq duyğusunun nə qədər subyektivləşə biləcəyinin erkən nümunəsidir.

"Mən həmişə ruhumla bədənim, düşüncəmlə hisslərim arasında bölünmüşəm və heç vaxt onların heç birinə aid olmamışam" [13, s.132].

Burada hadisələrin reallığı personajın psixoloji durumundan asılıdır. Bu mövzu seçimi Sa Karneyrunun yaşadığı mənəvi çöküşün əlamətlərini əks etdirir. Onun obrazları reallıqdan qaçmağa, xəyal və illüziyaların arxasında gizlənməyə meyillidirlər. Sa Karneyrunun nəsrində və novellalarında tez-tez depressiya və uçurum hissi duyulur.

Onun qısa hekayələr toplusu "Başlanğıc" (1912) və "Alovlu Səma" (1915) kimi kitablarında bəzi hekayələr elmi-fantastik rənglərlə zəngindir. Yazıçının yaradıcılığında intihar, ruhi sarsıntı, xəyal və gerçəkliyin qarışması kimi mövzular geniş yer tutur. Bu mövzular bilavasitə onun şəxsi həyatındakı böhran ilə əlaqəlidir. Sa Karneyru Parisdə yaşadığı illərdə ciddi depressiya keçirir və 1916-cı ildə özünə qəsd edir. Onun poeziyasında da "öz güclü duyğularına tab gətirə bilməyən şəxsiyyət böhranı" kimi xarakterizə olunur. Bəzi tənqidçilər isə bunu müəllifin intiharına işarə kimi dəyərləndirirlər [6, "Mario de Sa Carneiro"]. Eyni cəsarətli eksperimentallığı və dekadentizmi onun nəsr üslubunda da görmək mümkündür.

Mario de Sa Karneyru modernist nəsrə "dekadent oyun" anlayışını gətirdi. Onun qəhrəmanları bir qayda olaraq öz mənliklərindən əmin deyillər, davamlı şübhə içindədirlər və həqiqəti dərk etməyə çalışdıqca daha da böhrana düçar olurlar. Bu, modernist ədəbiyyatda geniş yer alan nihilizm və

şəxsiyyətin dağılması motivlərinin Portuqaliya ədəbiyyatında öz yerini tapmasını göstərir. O, tez-tez oxucunu aldatma metodundan istifadə edir. "Lusyonun etirafı" əsərindəki ya da digər hekayələrdə hadisələr elə təqdim olunur ki, sonda əsərin qəhrəmanı böhran yaşayır. Bu tərz ədəbi texnika postmodern nəsrdə məşhur olsa da, Sa Karneyru onu 1910-cu illərdə tətbiq edirdi. Bu baxımdan onu Portuqaliya ədəbiyyatının ən kompleks modernistlərindən biri saymaq olar. Mario de Sa Karneyru modernizmin dekadent-estetik qolunun parlaq təmsilçisi olmuşdur.

**Çoxyönlü modernist Xose de Almada Neqreyruş**

Portuqaliya modernizminin digər görkəmli nümayəndələrindən biri də Almada Neqreyruş olmuşdur. Almada Neqreyruş 1893-cü il 7 apreldə Sao Tome şəhərində anadan olmuşdur. Onun anası Lissabonda təhsil almış mulat, atası ise yəhudi əsilli yüksək vəzifəli məmur idi. Anasını erkən itirmiş, 7 yaşında Lissabona gəlmiş və xalası ilə yaşamışdır. Burada ibtidai təhsilini almışdır. O, 12 yaşında qəzet yazmağa başlayır, karikaturaçı kimi fəaliyyət göstərir. Sonrakı illərdə o dövrün yumoristik jurnalları ilə əməkdaşlıq etmişdir. Cəmi 20 yaşında 90 rəsmlə ilk sərgisini keçirmiş, 21 yaşında həftəlik jurnalın bədii rəhbəri olmuşdur [8]. Bu sənətkardan danışarkən "Bütün sənətləri sevən adam" ifadsinə tez-tez rast gəlmək mümkündür. Hətta o "Canço da Saudade" kitabında belə bir cümlə də yazmışdır: "Əgər mən kor olsaydım, mən hər kəsi sevərdim". Neqreyruş povest, jurnal və kitablar üçün illüstrasiyalar yaratmış, roman, pyes, esse yazmışdır. Almada Neqreyruş bütün sənətləri birləşdirmək istəyən bir şəxsiyyət olmuşdur. Onun "Qadın" tablosu "Columbano" mükafatı qazanmış, bir çox sərgidə müxtəlif mükafatlar almışdır [2]. O öz həmkarları tərəfindən "Master Almada" adlandırılırdı. O, Portuqaliyada müasir incəsənətin müxtəlif sahələrində tanınmış bir şəxsiyyət idi. Almada Neqreyruş rəsm, qrafika, ədəbiyyat və teatr sahəsində əhəmiyyətli iz qoymuşdur. Portuqaliya ədəbiyyatından, sənətindən danışılırsa, Almada Neqreyruş adını çəkmədən keçə bilmərik. Sənətkarın anadan olmasının 100 illiyi münasibətilə nəşr olunan "Almada" kataloqunun ön sözündə qeyd edilir ki, XX əsrin ilk illərində Portuqaliyanın bədii və ədəbi hərəkatları ilə bağlı heç bir araşdırma onun adını çəkmədən edilə bilməz. Bir neçə il üsyançı rolunu seçən Almada ictimaiyyəti sarsıtmaq istəyini söndürə bilməyib. Almada Neqreyruş 1913-cü ildə Fernando Pessoa ilə görüşmüşdü. Fernando Pessoa, Almada Neqreyruş karikatura üzrə sərgisi ilə bağlı məqalə yazmışdır. Almada Neqreyruşun sənətkarlığı haqqında yüksək fikirlər söyləmiş və onun Parisdə qalmasının vacibliyini vurğulayır. Almada Neqreyruş modernizmdən əvvəl realizm, naturalizm və simvolizm cərəyanları ilə maraqlanmışdır. Modernizm dövründə isə Almada Neqreyruş futurizm, sensassionizm, (çox vaxt Pessoanın adı ilə bağlayırlar, hətta Portuqal modernizminin Pessoa dövrünü də belə adlandırmışlar) simultanizm və kubizm cərəyanlarından təsirlənmişdir. Lissabonda modernistlər qrupunda Fernando Pessoa, Mario de Sa Karneyuro kimi Almada Neqreyruş da öz sözünü demiş sənətkarlardan idi. Almada Neqreyruş həmçinin Fernando Pessoanın təşkil etdiyi "Orfeu" jurnalının iki tarixi nömrəsində iştirak etmişdir. Buna görə də, "Orfeu" nəslinin nümayəndəsi olaraq tanınmışdır. Portuqal modernizminin digər fərqləndirici cəhətlərindən biri də "Orfeu" jurnalının adı ilə bağlıdır. Orfeu yunan əsatirində sənəti sevən və sənətin gücünə inanan ilahi şairdir. Orfizm nəslini də sənətin öz sözünü deməsinə vasitə olan modernistlər adlandırmaq olar.

Almada Neqreyruş Lissabon rəssamı kimi tanınmışdır. O həmçinin Pessoanın inspeksionizmini (ədəbiyyata yeni baxışı) təcrübədən keçirmişdir. Almada Neqreyruşun təhsili ile bağlı məlumatlar mənbələrdə fərqli formalarda qeyd ediliir. Bəzi mənbələr onun xüsusi təhsil almadığını, bəziləri isə incəsənət təhsili aldığını vurğulayır. Lakin "özünü öyrədən" anlayışına daha çox rast gəlindiyindən demək mümkündür ki, ali təhsil almamışdır.

Almada Neqreyruş 1919-1920-ci illər arasında Parisdə rəsm əsərlərini öyrənmişdi. Almada Neqreyruşu digərlərindən ayıran xüsusiyyətlərdən biri də onun sadəcə yazıçı, şair kimi yox, həmçinin rəssam və rəqqas kimi də tanınması olmuşdur. O, kabare adlanan rəqsi bilmiş, bədii mətnlər və sənət əsərləri ilə yanaşı özünün məşhur portretini də yaratmışdır. O, yalnız yazıçı kimi deyil, eyni zamanda

rəssam, qrafik, xoreoqraf, aktor kimi də fəaliyyət göstərən çoxşaxəli bir sənətkar idi. Almada Neqreyruş modernist hərəkatın ən sərbəst ruhlu nümayəndələrindən sayılır. Onun ədəbi yaradıcılığına baxdıqda, janrlararası sərhədləri asanlıqla aşdığını görə bilirik. Şeir, nəsr, dram, esse, manifestlərdən öz ideyalarını yaymaq üçün vasitə olaraq istifadə etmişdir. Almada Neqreyruşun modernist ədəbiyyata ən böyük töhfələrindən biri onun manifestləri və ədəbi polemikaları olmuşdur. 1917-ci ildə isə onun yazdığı "Futurist Ultimatum" məqaləsi futurizm ideyalarını Portuqaliya ictimaiyyətinə tanıtdı [9, s.6-7]. Neqreyruşun publisistik çıxışları modernizm nəzəriyyəsini ən açıq formada ifadə edən sənədlərdir. O, ədəbiyyatı "bütün incəsənətlərin cəmi" kimi görürdü və istəyirdi ki, yeni nəsil sənətdə hər şeyi yenidən kəşf etsin. Bu iddialı çağırışlar onun ədəbi əsərlərində də qarşılığını tapmışdır.

Almada Neqreyruşun nəsr əsərləri içərisində "A Engomadeira" (Ütücü qadın, 1917) və "Nome de Guerra" (Savaşın adı, 1925; 1938-də nəşr olunub) xüsusi ilə seçilir. "Ütücü qadın" qısa romanı modernist ədəbiyyatın sürrealist istiqamətidir.

"Kor olsaydım, hamını sevərdim...." .

Əsərin süjeti gündəlik həyat təsiri bağışlayır. Müəllif obrazın gündəlik həyatını şüur axını metodu ilə verir: zaman və məkan əlaqəsi itir, ardıcıllıq pozulur, oxucu sanki sınmış bir aynanın ayrı-ayrı hissələrinə baxır. Əsərdə məntiqsizlik, absurdizm özünü göstərir. "Ütücü qadın" haqqında ədəbiyyatşünaslar bildirir ki, əsərində sürrealistik təsvirləri vardır [3]. Həqiqət bir xəyal kimi görünür. Bu xüsusiyyətlər Almadanın üslubunu digərlərindən fərqləndirir.

Ümumən, Almada Neqreyruş nəsri Portuqaliya modernist ədəbiyyatının ən yenilikçi qollarından birini təmsil edir. Almadanın ədəbi təcrübələri çox vaxt öz dövrünü qabaqladığını göstərir. O, 1920-30-cu illərdə hələ dünya ədəbiyyatında tam formalaşmamış sürrealist cərəyanın ilk işartılarını öz əsərlərində sınaqdan keçirdi. Bu səbəbdən Almada Neqreyruş təkcə Portuqaliya deyil, ümumiyyətlə Avropa modernizm tarixində unikal bir sənətkar kimi yadda qalmışdır.

## Nəticə / *Conclusion*

Portuqal modernizmi, romantizmin fəal rol oynadığı dövrdən sonra yarandığı üçün cərəyana təsirini görmək mümkündür. Burada simvolizm ünsürlərinə tez-tez rast gəlirik. Portuqal modernizmində Avropada olduğu kimi ekspressionizmin də təsiri olmuşdur. Fernando Pessoa, Mario de Sa Karneyru və Xose de Almada Neqreyruş nümunəsində Portuqaliyada modernizmin birinci nəsli ədəbiyyatda dərin iz qoydu. Onlar modernizmin fərqlərini və özünəməxsus keyfiyyətlərini ön plana çəkərək fərqli yanaşma formalaşdırıblar. "Narahatlığın Kitabı" əsəri modern insanın təhtəlşüurunun portretinə çevrildi. Sa Karneyru modernizmin dekadent-romantik tərəfini yaradaraq, öz əsərlərində ruhi pozuntuları, xəyal qırıqlıqlarını və reallığın illüziyaya qarışmasını sənətkarlıqla göstərdi. Almada Neqreyruş isə modernizmin üsyankar simasını üzə çıxardı. O, ədəbiyyatı digər sənət sahələri ilə birləşdirərək absurd, satira və sürrealizm elementlərini əsərlərində işlədir. Onun tənqidi yanaşması və cəsarətli ifadə tərzi modernist estetikaya ideoloji istiqamət verir. Beləliklə, bu üç yazarın yaradıcılığını təhlil etdikdə görürük ki, Portuqaliya modernizminin nəzəri əsasları simvolizmdən irəli gələrək, sensassionizm konsepsiyaları möhkəmləndirilib. Fernando Pessoa və digər modernistlər ədəbiyyatda insan təcrübəsini daha əvvəl görünməmiş tərzdə edə bildilər.

Portuqal modernizminin Avropada tanınmasının əsas səbəbkarı Fernando Pessoa olsa da, Almada Neqreyruşun, yəni "Sənəti sevən adam"ın təsirlərini də görməzdən gələ bilmərik. Avropada və Portuqaliyada modernizmin əsas məqsədi, insanın daxili dünyasını açmaq və bunu bütün insanlığa tanıtmaqdan ibarət olmuşdur. Bunun üçün modernistlər bütün səyləri ilə insanın iç dünyasındakı ziddiyyətləri açmağa çalışmış və buna fəlsəfənin, psixologiyanın köməyi ilə nail olmuşlar.

## Ədəbiyyat / *References*


1. Atay H., & Demir Atay H. Perversity as a literary idea: Traces of Edgar Allan Poe in Fernando Pessoa's modernism. Söylem, 2022, 7(3), 655-667. https://doi.org/10.29110/soylemdergi.1168734-2623330
2. Ferreira R. Almada Negreiros: The man who loved all the arts. Citalia Restauro, 2025 https://en.citaliarestauro.com/almada-negreiros-2/
3. Garay R. P. Almada Negreiros, la creatividad infinita. Sincronía: Revista de Filosofía, Letras y Humanidades, 2001, 6 (21). Recuperado de http://sincronia.cucsh.udg.mx/negreiros.htm
4. Henriques da Silva R. José de Almada Negreiros: Modernism in the Visual Arts. In S. Dix & J. Pizarro (Eds.), Portuguese Modernisms: Multiple Perspectives on Literature and the Visual Arts . Routledge, 2011/ https://doi.org/10.4324/9781315089607-6
   https://purl.pt/27947/5/P142.html
   https://www.lisbon.vip/lisbon-essentials/cultural-experiences/mario-de-sa-carneiro
5. Lima de Lima I. B. (t.y.). Da estetika do fragmento em Benjamin e Pessoa: A escrita em desassossego. Cadernos Walter Benjamin
6. Mário de Sá-Carneiro Online. (n.d.). Mário de Sá-Carneiro Online. Retrieved December 18, 2025, from https://sacarneiro.sdsu.edu/
7. Mário de Sá-Carneiro: A literary enigma of Lisbon.
8. Museu Nacional Soares dos Reis. Almada Negreiros: A unique figure in the Portuguese artistic panorama, 2024, April 7. https://mnsr.museusemonumentospt.pt/almada-negreiros-a-unique-figure-in-the-portuguese-artistic-panorama/?lang=en
9. Negreiros A. Manifesto Anti-Dantas. In A way of being modern, 1915 (pp. 11–12). Scribd. Retrieved December 18, 2025, from https://www.scribd.com/document/505139195/A-Way-of-Being-Modern
10. Pessoa F. Huzursuzluğun Kitabı (S. Özen, Trans.). – İstanbul: Can Yayınları, 2006
11. Pessoa F. Prefácio para uma antologia de poetas sensationistas. Arquivo Pessoa, 1912 http://arquivopessoa.net/textos/1912
12. Rebelo, Luís de Sousa, Lamb, Norman Jones, Atkinson, William C., Jackson, K. David. "Portuguese Literature". Britannica Encylopedia 9 Avqust 2022, https://www.britannica.com/art/Portuguese-literature. 18 dekabr 2025-ci ildə əldə edilib
13. Sá-Carneiro, M. de. A Confissão de Lúcio, 1913
14. Walz R. Modernism (2nd ed.). Routledge, 2013


## Прозаическая карта португальского модернизма: диалог Фернанду Пессоа, Са-Карнейру и Алмады Негрейруша


**Гульшан Шабанова**
Бакинский Евразийский Университет
E-mail: sabanovagulsen41@gmail.com



**Резюме.** В данной статье исследуются теоретико-эстетические основы португальского модернизма, а также творчество Фернанду Пессоа, Са Карнейру и Жозе Алмада Негрейруш. Поясняется, как модернизм, отделившись от символизма, развивался под влиянием сенсассионизма, футуризма и авангарда. Пессоа с помощью гетеронимного письма выразил фрагментированные аспекты внутреннего «я» современного человека; Са Карнейру привнёс в прозу декадентские мотивы и кризис личности; Алмада Негрейруш же развивал модернизм через элементы абсурда, сатиры и богатства визуальных образов. Статья показывает, что творчество этих трёх авторов вывело португальский модернизм за рамки национальной литературы и подняло его на уровень диалога с европейским модернизмом.



**Ключевые слова:** португальский модернизм, Фернанду Пессоа, Мариу де Са-Карнейру, Жозе Алмада Негрейруш, сенсассионизм, литература Европы XX века